# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 115** **Bakı şəhəri, 15 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 11 aprel tarixli 80 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2017-ci il 13 fevral tarixli 51 nömrəli Qərarının ləğv edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 30 sentyabr tarixli 375-VIKQD nömrəli Konstitusiya Qanununun və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 30 sentyabr tarixli 591-VIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunun tətbiq edilməsi barədə" 2011-ci il 16 fevral tarixli 384 nömrəli, "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2011-ci il 1 iyul tarixli 463 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 12 noyabr tarixli 1876 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 aprel tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 392; 2017, № 1, maddə 133; 2019, № 5, maddə 960) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin birinci cümləsinə "qəzetində" sözündən sonra "və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında yerləşdirilməsi yolu ilə" sözləri əlavə edilsin;

1.2. 3-cü hissənin ikinci cümləsinə "dərc edilməsini" sözlərindən sonra "və rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsini" sözləri əlavə edilsin.

**2** "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 fevral tarixli 51 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 304; 2019, № 2, maddə 334) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2023.- 18 aprel.- S.2.